AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

İNGİLİS DİLİ MƏTNLƏRİNİN STRUKTURUNUN SİTUATİV-KOMMUNİKATİV ASPEKTLƏRİ

İxtisas: 5708.01 – German dilləri

Elm sahəsi: Filologiya

İddiaçı: **Səyyarə Ələkbər qızı Quliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2024

Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Təhsil-1 fakültəsi nəzdində İngilis dilinin leksikologiyası və üslubiyyatı-1 kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
Əfqan Əli oğlu Abdullayev

Rəsmi opponentlər: filologiya elmləri doktoru, dosent
Rəna Teymur qızı Səfərəliyeva

filologiya elmləri doktoru, dosent
Lalə Qədir qızı Qurbanova

filologiya üzrə fəlsəfə doktoru
Elnarə Eldar qızı Putayeva

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, professor
Azad Yəhya oğlu Məmmədov

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
İradə Nadir qızı Sərdarova

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
Fəxrəddin Yadigar oğlu Veysəlli

İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Dissertasiya ingilis dili mətnlərinin strukturu, onun situativ kommunikativ təhlilinə həsr olunmuşdur. Bəllidir ki, mətnlər öz mahiyyətinə görə bütün bir tamdır. Mətnlər dil işarələrinin özünəməxsus spesifik xüsusiyyətlərinə ardıcıllıqdan və bağlılıqdan ibarət olmaqla xüsusi strukturlu olurlar. Təbii olaraq mətnlərin dildə kommunikativ vahid kimi müəyyən informasiya daşıması hər kəs tərəfindən qəbul olunmuş bir hadisədir, eyni zamanda həmin informasiya mətnlər vasitəsilə ötürülərkən müxtəlif formal əlaqə vasitələri ilə yanaşı semantik vasitələrdən də istifadə olunur. Başqa bir cəhət ondan ibarətdir ki, mətnlərin strukturunu, onların situativ kommunikativ parametrlərinin öyrədilməsi linqvistikada bir tərəfdən sintaktik səviyyə ilə bağlı olması ilə yanaşı orada olan semantik bağlılıqla da sıxı surətdə bağlıdır və belə olmasa uğurlu kommunikasiya alınmaz. Məhz buna görə də iyirminci yüzilliyin xüsusilə ikinci yarısından başlayaraq dünya dilçiləri, o cümlədən Azərbaycan dilçiləri mətnlərin strukturu, mətnlərdə iştirak edən komponentlər və o komponentlərin bir-biri ilə sıxı surətdə semantik cəhətdən bağlı olması və bu bağlılığın bilavasitə formal əlaqə vasitələri ilə ifadə olunması məsələlərinə xüsusi diqqət yetirilməklə müəyyən tədqiqatlar aparılmış və bu qəbildən olan işlər uğurla davam etdirilir. Mövzunun aktuallığını şərtləndirən digər bir cəhət ondan ibarətdir ki, bu dissertasiyada mətnin strukturu sadəcə strukturu deyil, bununla yanaşı onun situativ-kommunikativ təhlil edilməsidir, yəni eyni strukturlu mətn (bəzən mətnin komponenti olan cümlə) situasiyadan asılı olaraq fərqli funksional-semantik vahid kimi çıxış etməsidir.

Qeyd etdiyimiz kimi mətnin strukturundan müxtəlif zaman kəsiyində xeyli sayda tədqiqatlar aparılmışdır. Bu mövzu ilə bağlı müxtəlif səviyyəli tədqiqatlar aparmış tədqiqatçıların bir qisminin adlarını qeyd etməyimiz hesab edirik daha məntiqi olardı. Həmin tədqiqatçılar sırasında A.Veyl, V.Matezius, F.Danes, İ.Firbas, İ.Vardul, R.Xarverq, V.Dressler, P.Hartman, Q.Veynrix, O.Lapteva, İ.Raspopov, V.Panilov, Q.Zolotova, İ.R.Qalperin, N.Pospelov, M.Zəkiyeva, Azərbaycan dilçilərindən Ə.Cavadov, Ə.Xəlilov, K.Vəliyev, K.Abdullayev, N.Abbasova, Ə.Abdullayev, S.Abdullayev,

A.Məmmədov, F.Əlizadə, N.Novruzova və başqalarının tədqiqatlarını qeyd etmək olar. Həmin tədqiqatlarda mətnin qurulması və semantik strukturu, mətnin formalaşmasında formal əlaqələr, sintaktik bütövün formalaşmasında leksik və qrammatik vasitələrin rolu, mətn və cümlədə sözlərin sırası, mətni anlama modelləri və başqaları. Yeri gəlmişkən burada K.Abdullayevin Azərbaycan dili sintaksisinin nəzəri problemləri məsələsinə aid fundamental tədqiqatı və eləcə də Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər barədə kollektiv tədqiqatın əhəmiyyətini xüsusi qeyd etmək olar. İşlənmə dərəcəsindən bəhs edərkən onu da vurğulamaq istərdik ki, V.fon Humboldt, A.Potebnya, V.Matezius, A.M.Peşkovski, K.Abdullayev, Ə.Abdullayev, A.Məmmədov kimi dilçi-alimlərin nəzəri-konseptual ideyalarına söykənən mətn dilçiliyi nəzəriyyəsi müasir dövrdə müasir inkişaf səviyyəsinə qədər qoyub və mətnlərin yaranma mexanizminə və onun anlaşılması probleminə faktik olaraq prinsipial dərəcədə yeni münasibətin formalaşmasına imkan yaratdığı kimi, daha yeni istiqamətlərdə tədqiqatların aparılmasını da şərtləndirdi. Burada xüsusilə dil və mənanın, dil və anlama prosesinin eləcə də strukturdan-situasiyadan asılı olaraq semantikanın bir-birilə əlaqəsi məsələləri gündəm gəldi.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyekti ingilis mətnlərinin kommunikasiyanın müxtəlif situasiyalarda səviyyələrində özünü göstərən atroposentrik mahiyyətidir, predmeti isə ingilis mətnlərinin situativ, kommunikativ təhlildən irəli gələn nəticələrin sistemləşdirilməsi və konkret situasiya daxilində ümumiləşdirmələrin aparılmasıdır.

Tədqiqatın məqsəd və vəzifələri. Dissertasiya işinin əsas məqsədi ingilis dilində olan mətnlərin strukturu və onların situativ kommunikativ nöqteyi-nəzərdən təhlil edilməsidir. Həmin məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

– situasiya və kommunikasiya məsələsinə aydınlıq gətirmək;

– kommunikasiya zamanı situasiyanın rolunu aydınlaşdırmaq;

– kommunikasiyada müəyyən sistemliliyi, üzə çıxarmaq;

– mətnin komponentləri olan cümlələr arasında olan əlaqələrin növlərini göstərmək;

– mətnin komponentləri arasında formal və semantik əlaqə üsullarının mətnyaratma funksiyalarını faktik materiallar əsasında təhlilini aparmaq;

– kommunikativ situasiyaları fərqləndirici xüsusiyyətlərini müəyyənləşdirib təhlilini vermək;

– mətnyaratmada freymlərin rolunu müəyyən etmək;

– diskurs və referensiya münasibətlərinə aydınlıq gətirmək;

– müəllif şərhinin praqmatik xüsusiyyətlərini müəyyənləşdirmək.

Tədqiqat metodları. Dissertasiya yazılarkən müasir dilçilikdə ən doğru təlim kimi qəbul edilən sintaktik semantika haqqında tədqiqatlar əsas götürülmüş, eyni zamanda kontekstual təhlildən, həmçinin koqnitiv-praqmatik yanaşma ilə birlikdə mətnlərin şərhində struktur-semantik və funksional sintaktik metoddan istifadə olunmuşdur.

Müdafiəyə çıxarılan əsas müddəalar:

1. İngilis dilində bədii mətn müəyyən ardıcıllıqla insanlar və hadisələr haqqında danışan mətndir. Müxtəlif mətn növləri bədii əsər kimi qəbul oluna bilər. Bura bədii (nəsr) və şifahi xalq əsərləri, gündəliklər, məktublar, salnamələr, povest elementləri ilə gündəlik söhbətlər və s. aiddir. Ədəbi əsər (əsasən nəsr) şəxsin (müəllifin) başqa insanlar (oxucular) üçün yaratdığı, insanlar və onların başına gələn hadisələrdən bəhs edən bədii mətndir.

2. Mətni formalaşdıran formal və məzmun vahidlərinin qarşılıqlı əlaqəsindən danışarkən, ingilis dilində bədii əsərlərdə olan, mətn dilçiliyində, şifahi sənətin mahiyyətinin kommunikativ dərkindən irəli gəlir və buna görə də bədii mətni insanın kommunikativ fəaliyyətinin ən mühüm növü – ədəbi ünsiyyət prosesində nəzərdən keçirir.

3. Mətni yaradan komponentlər – cümlələr arasındakı əlaqəlilikdə ədəbi kommunikasiya, şəxsiyyətlərarası ünsiyyət kimi, həmişə mətnxarici səviyyədə – müəllif və oxucu kimi, mətndaxili səviyyədə – rəvayətçi və personaj kimi, mətnlərarası səviyyədə – biri digərinin oxucusu olan iki müəllif kimi, yəni özünü yaradarkən başqasının mətninin (intertekstem) məzmun strukturunun komponentindən istifadə etməklə təmsil olunan başqa biri ilə dialoq, qarşılıqlı əlaqədir.

4. Müəlliflə personajlar arasında ünsiyyət olan dialoq onların diskurslarının (müəllifin və başqalarının nitqi), mətn komponentləri

olan cümlələr arasında mövcudluğu vacib olan məntiqi-semantik bağlılığın qarşılıqlı əlaqəsidir ki, bunun nəticəsi müəllifin monoloqu kimi bədii mətnin daxili dialoqlaşmasıdır.

5. Müəllif monoloqunun daxili dialoqlaşması (mətn polifoniyası, bədii mətnin subyektiv çoxölçülülüyü) müəllifin məharət dərəcəsini üzə çıxaran bədii mətnin konstitutiv xüsusiyyətidir. Buna görə də bədii mətndə olan sistemliliyin tədqiqi bədii mətnin antroposentrikliyini öyrənmək üsullarından biridir.

6. "Müəllif" və "adresat" kateqoriyaları (modallıq, nöqteyi-nəzər, müraciət və s.), situasiyaları bir-birindən fərqləndirən faktorlar, mətn kommunikasiyasını əsaslandırmaq, habelə onların ifadə vasitələri obyektiv əsas verməyə imkan verən linqvistik alətlər toplusunu təşkil edir.

7. İngilisdilli ədəbiyyatda bədii mətn – müəllifinin girmək hüququ olmayan qondarma reallığı təsvir edən bədii əsərdir. Müəllifə onu bədii mətn aləmində təmsil edəcək, əsl natiqin analoqu olacaq əvəzedici lazımdır. Belə əvəz edən rəvayətçidir, onsuz müəlliflə oxucu arasında ünsiyyət baş tuta bilməz. Müəllif oxucularla ünsiyyət qurmaq üçün bu və ya digər tipli rəvayətçini "seçir" və bu seçim rəvayətin növünü müəyyən edir.

8. Dolayı nitqdən imtina aktlarının başa düşülməsi əsasən nitq situasiyasının freymin strukturu haqqında biliklərdən, yəni kommunikativ situasiyadan, sosial vəziyyətdən, şəxsiyyətlərarası münasibətlərdən və kommunikantların ümumi biliklərindən asılıdır. Bu aspektlərdən hər hansı birinin natamam biliyi, dolayı nitqdən imtina aktlarının yanlış şərhinə səbəb ola bilər.

Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, ingilis dili mətnlərinin strukturu faktik materiallar əsasında situativ kommunikativ istiqamətdə araşdırılır. Araşdırma zamanı kommunikasiyanın situasiyadan asılı olması məsələsinə rabitəlilik və semantik bağlılıq məsələsinə ilk dəfə olaraq həm koqnitiv dilçilik nöqteyi-nəzərindən, həm də mətnlərin linqvistik modelləri baxımından aydınlıq gətirilmişdir.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Bizə elə gəlir ki, tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, mətnin strukturunun tədqiqi konkret kommunikativ situasiyada funksiya yerinə yetirməsi, mətnin əsas xüsusiyyəti və onun strukturunu təşkil edən komponent-

lər, eləcə də kommunikativ situasiyanın mətnin formalaşmasına təsiri dərəcəsinin müəyyənləşdirilməsi nəzəri cəhətdən əsaslandırılması hesab oluna bilər. Bu problemin müasir dilçilikdə həll edilməsi mətn nəzəriyyəsinin inkişaf etdirilməsi üçün olduqca vacib hesab oluna bilər. Dissertasiyanın praktik əhəmiyyətinə gəldikdə, əldə olunmuş nəticələr mətnin strukturu haqqında kurslar, həmçinin mətnin linqvistikası xüsusi kurslarda, eləcə də mətn dilçiliyi sahəsində tədqiqat aparan tədqiqatçılar üçün nəzəri baza rolunu oynaya bilər.

Aprobasiyası və tətbiqi. Dissertasiyanın əsas müddəaları Respublikanın Universitetlərinin elmi jurnallarında, eləcə də xarici ölkələrdə nəşr edilən toplularda dərc olunmuş məqalə və tezislərdə öz əksini tapmışdır. Dissertasiya həm ümumi dilçilik sahəsində aparılan tədqiqatlar həmçinin müxtəlif ali məktəb auditoriyalarında mətn dilçiliyinə, eləcə də mətnlərin funksional-semantik parametrlərinə aid seçmə fənlərin tədrisi üçün, dilçiliyə aid xüsusi kursların tərtibində istifadə oluna bilər. Xüsusilə mətnin komponentləri-cümlələr arasındakı semantik bağlılığın öyrənilməsində dəyərli vəsait rolunu oynaya bilər.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Dissertasiya Azərbaycan Dillər Universitetinin Təhsil-1 fakültəsi nəzdində İngilis dilinin leksikologiyası və üslubiyyatı-1 kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Dissertasiya işi giriş, 3 fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Dissertasiyanın giriş hissəsi 6 səhifə, 10934 işarə, I fəsil 45 səhifə, 88439 işarə, II fəsil 35 səhifə, 68429 işarə, III fəsil 37 səhifə, 74143 işarə, Nəticə hissəsi 2 səhifə, 2972 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 244910 işarədən ibarətdir.

İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan müddəalar, elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti, tədqiqatın aprobasiyası və dissertasiyanın quruluşu haqqında məlumat verilmişdir.

Dissertasiyanın I fəsli **“Situasiya və kommunikasiya problemləri”** adlanır. Bu fəsil iki paraqrafdan ibarətdir. I fəslin birinci paraqrafı ***“Kommunikasiyanın situativ formalaşma yolları”*** adlanır. Bu paraqrafda zaman-zaman insanların kommunikasiyanın yaranması, mətnin yaranması, onların situasiya ilə bağlılığı barədə düşünmələri barədə söhbət açmışıq. Qeyd etməliyik ki, mətn tədqiqatçıları sırasında ən görkəmli yerlərdən birini çex alimi V.Matezius tutur. V.Mateziusun böyük xidməti ondan ibarətdir ki, mətnin ən mühüm, vacib kateqoriyasını, yəni aktual üzvlənməni bir problem kimi qarşıya qoymuş və dilçilik ədəbiyyatlarında qeyd olunduğu kimi zirvə hesab edilmişdir.

XX əsrin 60-cı illərində Ə.Ə.Xəlilov və Ə.M.Cavadov bu problemin tədqiqinin zəruri olmasını aşkar edərək, bəzi aktual cəhətləri barədə ilkin fikirlər söyləmişlər. Mətndən bəhs edərkən Ə.M.Cavadov yazır ki, *“mətnə daxil olan cümlələr qrup şəklində bir bütövə çevrilir”*[1].

*K*ommunikativ vəziyyət ünsiyyət və mətnin formalaşması üçün şərait yaradan ekstralinqvistik amillərdən ibarətdir. Burada ekstralinqvistik amillər linqvistik ünsiyyətin konkret həyata keçirilməsi halda artıq ekstralinqvistik deyil, nitqdə (mətnlərdə) dildən istifadə nümunələri onlardan asılıdır, hətta nəinki onlardan asılıdır, onlar tərəfindən dəqiqləşdirilir və müəyyən mənada (kommunikativ, sosial) linqvistik olur. Belə ki, kommunikativ situasiya nitqə daxil edilən mətnin ən mühüm məna yaradan komponenti hesab edir. Ünsiyyət şəraitinin dəyişməsi təkcə mətnin deyil, həm də diskursun parametrlərinin və xüsusiyyətlərinin dəyişməsinə səbəb olur.

Belə ki, bir tərəfdən, kommunikativ vəziyyət həmişə konkretdir, həmişə unikaldır. Digər tərəfdən, o, hansısa tipli, daha dəqiq desək, bir sıra tipli kommunikativ situasiyaların variantı kimi çıxış edir. Müvafiq olaraq, hər bir konkret mətn ünsiyyətin konkret kommunikativ situasiyasında ayrıca mətn kimi, mətn növünün variantı kimi də, diskurs komponenti kimi də çıxış edə bilər.

---

[1] Cavadov, Ə.M. Müasir Azərbaycan ədəbi dilində sintaktik vahidlərin sırası / Ə.M.Cavadov. – Bakı: Elm, – 1977. – s.105.

70-ci illərdə K.M.Abdullayev Azərbaycan dilinin materialları əsasında mətnin formalaşmasında aktual üzvlənmənin rolunun xüsusiyyətini ön plana çəkərək onu tədqiqat obyektinə çevirmiş və mətnin sərhədlərinin müəyyənləşdirilməsi üçün özünün orijinal metodunu təqdim etmişdir. Sonrakı dövrlərdə K.Vəliyev, F.Əlizadə, Ə.Ə.Abdullayev, Q.Bəyzadə, N.Novruzova və başqaları mətn sintaksisinin tədqiqi sahəsində xeyli iş görmüşdür.

K.M.Abdullayev yazır ki, *"tədqiqatçılar struktur baxımdan bir neçə predikativ birləşmə ilə qarşılaşdıqda belə, onlar nə qədər qəribə də olsa, yenə də faktiki olaraq bir cümlə haqqında danışırlar. Beləliklə, əslində paradoksal situasiya əsas etibarı ilə tabesiz mürəkkəb cümlələrlə bağlı idi. Dilçilik ədəbiyyatlarında əslində öz tərkibində iki və daha artıq cümlə daxil edən tabesiz mürəkkəb cümlə kimi ayrılan birlik A.M.Peşkovskinin dediyi kimi "cümlələr ittifaqı" faktiki olaraq bir cümlə kimi verilirdi"*[2].

İ.F.Vardul vurğulayır ki, *"tabeli mürəkkəb cümlələr əslində cümlələr deyil, çünki onlar ilkin cümlələrə bölünürlər. Bu cür adlandırılan vahidlər əslində tabesizlik nəticəsində ortaya çıxan cümlə zəncirləri, cümlə ardıcıllarıdır. Sonuncu nəticədən hiss olunur ki, müəllif belə qənaətə gəlir ki, (fikrimizcə – S.Q.) ümumiyyətlə tabesiz mürəkkəb cümlələr mövcud deyil, təbii olaraq uyğun terminlərə də ehtiyac qalmır. Bu sonuncuları sadə cümlələrin əksinə olaraq, mürəkkəb cümlə adlandırmaq kifayətdir. Bunun nəticəsində bizə elə gəlir ki, ənənəvi olaraq tabesiz mürəkkəb cümlə kimi öyrənilən sintaktik hadisənin tədqiqini tam şəkildə daha yüksək sintaktik birləşmənin, məhz mətnin sintaktik sərhədlərinə daxil etmək lazımdır"*[3].

Bu paraqrafda həmçinin qeyd etmişik ki, kommunikasiya zamanı (prosesində) iştirak etməklə biz həm danışılanı başa düşür, həm də özümüz situasiyadan asılı olaraq mətni-söyləmi yaradırıq. İlk olaraq bu proses zamanı bizim əsas məqsədimiz dildə ifadə olunan fikirlərin dərk anlaşılmasıdır. Dünya, cəmiyyət, həyat haqqında olan biliklərimizlə yanaşı eyni zamanda mətnin sosial konteksti, yaddaşda

---

[2] Abdullayev, K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri / K.M.Abdullayev. – Bakı: – 2016. – s.221.

[3] Вардуль, И.Ф. Основы описательной лингвистики / И.Ф.Вардуль. – Москва: Наука, – 1977. – с.81.

olan informasiyanın bildirilməsi bacarığı, mətni situasiyadan asılı olaraq, başqa sözlə situasiyanın rolunu nəzərə alaraq mətni planlaşdırmaq, idarə etmək və digər cəhətlər də böyük rol oynayır.

Kommunikasiya zamanı istifadə olunan mətnə Ə.Ə.Abdullayev bir qədər fərqli mövqedən yanaşır və vurğulayır ki, biz mətn *dedikdə, bu zaman müəyyən yolla nizama salınmış, kommunikativ vəzifənin vahidliyi ilə birləşmiş cümlələr çoxluğu başa düşürük. "Mətn" termininin özü də birmənalı qavranılmır. Bu anlayışa bir cümləni və sadə söyləmdən bütöv romanadək cümlələr qrupunu daxil etmək olar. Bunun üçün müxtəlif terminoloji vahidlərdən istifadə edilir: mürəkkəb sintaktik bütöv, frazadan yüksək birlik, abzas, nəsr parçası, kontekstual bütöv, superfraza və başqa terminlər.*[4]

Mətnin formalaşmasından, onun situativ kommunikasiyasından bəhs edərkən vurğulamaq istərdik ki, biz yalnız sözlərlə, ayrı-ayrı cümlələrlə deyil, həmçinin mətnlərlə ünsiyyət yaradırıq. Biz danışırıq, bir-birimizə hansısa informasiya ötürürük, qələm əhli hadisələri təsvir edir, qeyd olunanların hamısı mətnlərlə mümkün olur. Təbii olaraq mətn formasında və mətn funksiyasında dil insanlar arasında ünsiyyətə çevrilir. Mətndaxili əlaqəlilik semantik aspektin qarşılıqlı əlaqəsi, eləcə də bura daxil olan komponentlərin məzmunlarının sıx şəkildə birləşməsi nəticəsində təmin olunur.

Mətnin yaranmasının özünəməxsus qanunauyğunluqları var. Mətnin təşkili mexanizmi heç də onun qurulma texnikası, bir-birinin ardınca gələn cümlələrin proqressiyası ilə məhdudlaşmır. Mətni formalaşdıran sözlər, onlar arasında formal əlaqə yaradan sözlərlə yanaşı situasiyadan asılı olmaq və həmçinin mətni yaradan insanın niyyəti, məqsədi həmişə qızıl xətlə keçir. Bu zaman bəzi fikirlər eksplisit, bəziləri isə implisit yolla mətndə verilir və kommunikasiya zamanı təbii olaraq informasiyanı ötürən və qəbul edənin fon bilikləri də az əhəmiyyət kəsb etmir. Məsələn,

"George", said Mrs. Hurstwood, in that tone of voice which had long since come to be associated in his mind with demands, "we want you to get us a season ticket to the races". "Do you want to go

---

[4] Abdullayev, Ə.Ə. Aktual üzvlənmə, mətn və diskurs / Ə.Ə.Abdullayev. – Bakı: – 2011. – s.92.

to all of them?" he said with a rising inflection. "Yes", she answered"[5]. *– "Bir dəfə m-s Herstvud ərinə çoxdan məlum olan və mütləq onun bir şey xahiş edəcəyini bildirən ahənglə: – Corc – dedi, – biz cıdır üçün mövsümi bilet almaq istəyirik. – Məgər siz daim cıdıra getmək istəyirsiniz? – deyə o soruşdu və "daim" sözünü bir qədər bərk dedi. – Bəli, – deyə m-s Herstvud cavab verdi".*

Üç-dörd cümlədən ibarət mətn parçasında situasiyadan asılı olaraq kommunikasiya sakit bir məcradan hardasa bir qədər əsəbilik, narazılıq yaradır. Yəni m-s Hestvudun cıdır üçün sezon (daimi) bilet alması istər-istəməz onun ərində qıcıq yaradır, halbuki, birinci cümlədə Mr.Herstvud arvadının ondan nəsə xahiş edəcəyini duyur və son nəticədə situasiyadan asılı olaraq kommunikasiya bir qədər daha ciddi bir mərhələyə keçir və m-s Herstvudun bütün sezon boyu cıdıra getmək arzusu bəlli olur. Dissertasiyada bu mətnin növbəti hissəsində (sezon) "daimi"nin arxasında daha başqa məqamların da olması verilir və biz həmin kontekstin hamısını avtoreferata gətirə bilmirik. Ancaq onu qeyd edə bilərik ki, daimi cıdıra getmək sadəcə cıdır deyil hansısa qonşusunun cıdır da xüsusi lojaları olduğundan, m-s Hestvud da bu il daimi bilet əldə etmək istəyirdi. Bütün bunlar implisit olaraq sezon (daimi) biletin arxasında m-s Hestvudun niyyətindən xəbər verir və situasiyadan asılı olaraq "season ticket" həmin mətnin nüvəsini təşkil edir. Bu paraqrafda belə mətn parçalarından istifadə etmişik və situasiyadan asılı olaraq kommunikasiyanın formalaşmasını şərh etmişik.

Əlaqəlilik mətnin məzmununu, onun məntiqi-semantik bütövlüyünü əmələ gətirir.

Məntiqi-semantik-sintaktik əlaqələr sırasında həm zəncirvari, həm də paralel əlaqələri mətn daxilində göstərmək olar. Situasiyanın rolu bu zaman çox böyükdür. Həmin əlaqə növlərinə də düşüncədə müəyyənləşən hökmlər arasındakı analoji üsullar uyğun gəlir. Bu əlaqələrlə bağlı Q.Solqanik belə fikir bildirir ki, d*üşüncədə hökmlərin əlaqəsi təkrar edilmə, yəni əvvəlki hökmdəki predikatın və ya subyektin sonrakı hökmlərdə təkrarlanması, yaxud genişləndirilməsi vasitəsilə həyata keçirilir. Belə olan şəkildə əvvəlki hökmün predikatı sonrakı subyekt, subyekti isə predikat kimi çıxış edir.*

[5] Dreiser, Th. Sister Carrie / Th.Dreiser. – Moscow: – 1968. – p.169.

Hökmlər arasında əlaqənin bu növü zəncirvari əlaqə adlanır. Paralel əlaqə zamanı isə, zəncirvari əlaqədən fərqli olaraq, hökmlərdəki təkrarlanan sözlər arasında eyni funksiyanı yerinə yetirir. Onlar həm əvvəlki, həm də sonrakı hökmlərdə ya subyekt, ya da predikat kimi çıxış edə bilir [6].

Bütün bu zəncirvari, məntiqi-semantik-sintaktik əlaqəni biz bir qədər öncə nümunə gətirdiyimi mətndə olan "to get a season ticket"in özündə cəmlənmişdir, yəni burada sadəcə daimi bilet almaqdan söhbət getsə də situasiyadan asılı olaraq m-s Herstvudun niyyəti qonşusunun cıdırda təzəlikcən lojasının olmasını bilməsi və ona görə də gözlənilmədən daimi bilet məsələsi meydana çıxır.

Burada biz koqnisiyanı da unutmuruq. Mətn parçasında fon bilikləri hesabına *"season ticket"* ifadəsi mr. Herstvudu düşündürür və ona görə də situasiya yaranır, o hirslənir və "bütün yarışlara" gedəcəksən? deyə m-s Herstvuda müraciət edir və burada yuxarıda qeyd etdiyimiz kimi komponentlər arasındakı əlaqənin üzə çıxması üçün xanım Bəli – deyəndən sonra kommunikasiyanın digər komponentləri olan xanım Herstvudun niyyətləri bir-birinin ardınca əhəmiyyətlilik və əhatə dairəsinə görə sıralanır və dəfələrlə qeyd etdiyimiz kimi situativ kommunikasiya yaranır.

I fəslin ikinci paraqrafı ***"Kommunikativ situasiyaların sistemliliyi"*** adlanır. Mətndən, sistemlilikdən bəhs edən tədqiqatçılardan biri olan İ.R.Qalperinin dediyi fikirlərə ilk növbədə istinad etmişik. O vurğulayır ki, *"zəncirvari daxili ardıcıllıqla sıralanan müvafiq qəlibdə nizamlanan xüsusi avaz və ahənglə bir-birinə bağlanan cümlələrdən ibarət mürəkkəb sintaktik parçalar mətn adlanır"*[7].

Həmçinin K.Vəliyevin fikirlərini də nəzərə almışıq. K.Vəliyev yazır: *"Mətn ayrı-ayrı cümlələrin mexaniki yığımı, toplusu deyil, yeni keyfiyyət və kəmiyyət daxilində meydana çıxan qanunauyğunluğun yekunudur. Mətnin semantikası bu cümlələrin (söyləmlərin) semantikasından daha genişdir. Çünki mətn bir mənzərəni, əhvalatı,*

---

[6] Солганик, Г.Я. Стилистика текста / Г.Я.Солганик. Учебное пособие. 2-е из. – Москва: Наука, – 2000. – с.21.

[7] Гальперин, И.Р. Очерки по структуре английского языка / И.Р.Гальперин. – Москва: Наука, – 1958. – с.12.

mətləbi tam ifadə edir və onun tərkibindən cümlələr ayrı-ayrı hissələr kimi tamı yaradır"[8].

Dissertasiyada həmçinin başqa dilçilərin dı bu barədə fikirlərinə istinad etmişik A.İ.Beşek, Şevyakova, Q.Veynrix, Ə.Abdullayev və başqaları.

V.Şevyakova yazır ki, *söz sırasının dəyişdirilməsi birbaşa olaraq mətnlə bağlı şəkildə özünü büruzə verir. Cümlə ümumi kontekstdən, kommunikasiyadan və ekspressiv ifadə funksiyasından asılı olaraq yerini dəyişə bilir. Aktuallıqla bağlı olaraq isə, bunun əksi olaraq, sıra, yəni inversiya hadisəsi meydana çıxır. Cümlə üzvləri inversiya zamanı əks sıra ilə düzülür ki, bu zaman yer və zaman determinantlarının, xəbər və mübtəda, təyinlə təyin olunan sırası cümlə çərçivəsindən kənara çıxdığına görə yerləri sərbəst olur. Beləliklə, mübtəda və determinant öz yerlərini dəyişirlər, çünki onlar bu zaman məntiqi vurğu ilə müşayiət olunurlar*[9].

Bütün bu qeyd etdiyimiz fikirlərə istinadən qeyd etmişik ki, mətn parçasını kommunikativ situasiyanın sistemliliyi bucağı altında tədqiq edək, bu daha məntiqi və məzmunlu olar, çünki sintaktik bağlılıq, semantik bağlılıq, qrammatik-məntiqi bağlılıq bu fikirlərin hamısında vurğulanıb və hamısından fərqli yanaşma mətnin formalaşmasında bir sistemlilik sistemi də mövcuddur. Bu onunla bağlıdır ki, sistemli şəkildə ötürülən informasiyanın kommunikativ situasiyada hər birinin əhəmiyyət dərəcəsi, birinin digərindən əvvəl və sonra verilməsinə görə fərqlənir, baxmayaraq sonda hamısı birlikdə bir məntiqi məzmun təşkil edir. Bütün bunların hamısı dissertasiya boyu mətn parçaları əsasında şərh olunub və həmin parçalardan birini diqqətə cəlb edək: *"Ladies and gentlemen. I have the honour to present Madame Stella". A little figure appeared at the top of the steps, ran quickly, up to the tank, and bowed to the applauding audience. She wore a man's dressing gown and in her hand was a*

---

[8] Vəliyev, K.N. Cümlənin semantik üzvlənməsi: Azərbaycan dilçiliyi məsələləri / K.N.Vəliyev. – Bakı: ADU-nun nəşri, – 1981. – s.370.

[9] Шевякова, В.Е. Актуальные членение предложения / В.Е.Шевякова. – Москва: Наука, – 1976. – с.17.

bathing-cap"[10]*. – Xanımlar və cənablar. Madam Stellanı sizə təqdim etmək şərəfinə nail olmuşam. Balaca bir fiqura pilləkənin lap yuxarısında, peyda oldu cəld qaçdı rezervuarın yuxarısına qalxdı və onu alqışlayan tamaşaçılara baş əydi. O ipək kişi pijaması geymişdi və əlində çimərlik kepkası vardı.*

Bu mətn parçasında *"little figure"* kommunikativ situasiya sistemində mərkəzdə dayanır və burada həmin ifadə ilə başlayan cümlə nə birinci gələ bilməzdi, nə də axırıncı, çünki birinci o gəlsəydi, o zaman sistem pozulardı, o səhnəyə gəlib baş əysəydi və onu sonra təqdim etsəydilər həmin effekt alınmazdı, digər tərəfdən onun kişi pijamasında olması, əlində çimərlik kepkasının olması da həmin sistemi pozardı.

Həmçinin bu paraqrafda fərqli mətn parçalarında da cümlələrin yerinin dəyişdirilməsi, ardıcıllığın pozulması ilə sistemliliyin pozulmasını əyani şəkildə şərh etmişik.

Mətn əmələ gətirmədə kommunikativ sistemliliyə tam nail olmaq üçün bəzi məsələlərə aşağıda qeyd etdiyimiz kimi yanaşmaq və həmçinin mətndə iştirak edən hər komponentin (cümlə üzvünün) aktuallaşmasına xüsusi əhəmiyyət vermək vacib şərtlərdəndir.

İlk növbədə həm mətnin konkret zaman kəsiyində, həm də onun tam formalaşması prosesində məlum olanın və yeni ötürülən informasiyanın bütöv vəziyyətinin nəzərə çarpması baş verir.

İkinci növbədə, həmin komponentin (cümlə üzvünün) aktuallaşması bütöv və dinamik bir fenomen kimi mətnin başqa əlamətlərini aydınlaşdırmaqla yanaşı kommunikasiyanın, kommunikativ situasiyanın sistemliliyini təmin etmək qüvvəsinə malikdir.

Üçüncü cəhət ondan ibarətdir ki, mətn daxilində olan yarımçıq cümlə xüsusiləşmə kimi linqvistik hadisələrin imkanlarını müəyyənləşdirib dəqiqləşdirməklə bərabər, kommunikativ situasiyanın sistemliliyini əyani surətdə şərtləndirə bilər.

Nəhayət bütün bunlarla yanaşı formalaşan mətnlərin janr xüsusiyyətləri, həmçinin müəllifin özünün şəxsi üslubu ilə yanaşı, müxtəlif funksional üslubların hər birinin ayrı-ayrılıqda orijinal vəziyyətlərini öyrənmək üçün geniş imkanlar yaranır və bununla da

---

[10] Maugham, S.W. Cakes and Ale: or The Skeleton in the Cupboard / S.W.Maugham. – Moscow: Progress, – 1980. – p.153

kommunikativ situasiyanın sistemliliyinə daha yeni əlamətlər əlavə oluna bilər.

Mətn linqvistikası ilə məşğul olan tədqiqatçılardan biri də T.van Deykdir. Onun tədqiqatları mətnin praqmatikasına aiddir və onun tədqiqatlarında semantika, praqmatika, presuppozisiya nitq aktının mürəkkəbli, tərkibliyi (yəni orada olan komponentlər – cümlələr) illokutiv akt, fokus kimi məsələləri əhatə edir. Nümunə üçün mətnə müraciət edək: *"Among the forces which sweep and play throughout the universe, untutored man is but a wisp in the breeze. Our civilization is still in a middle stage, scarcely beast, in that it is no longer wholly guided by nature; scarcely human, in that it is not yet wholly guided by reason. On the tiger no responsibility rests. We see him aligned instinctively with the forces of life – he is born into their keeping and without thought he is protected."*[11] – *"Həyat təcrübəsi olmayan adam kainatda coşan küləyin apardığı zəif bir ot kimidir. Bizim mədəniyyət hələ öz yolunun yarısındadır. Biz artıq vəhşi deyilik – çünki biz hərəkətlərimizlə yalnız instinktlərə əsaslanmırıq, lakin hələ kamil insanlar da deyilik – çünki biz yalnız ağılla iş görmürük. Pələng öz hərəkətləri üçün cavabdeh deyildir. Təbiət ona yaşamaq üçün lazım olan bütün şeyləri bəxş etmişdir – o anadangəlmə instinktlərə tabe olur və şüursuz olaraq bu instinktlərlə özünü müdafiə edir…"*

Burada informasiyanı nəql edən müəllifin özüdür. Müəllif nitqində həm bilavasitə insana aid olan keyfiyyətlər, həm də insanın keçmişinə və insanın başqa canlı ilə müqayisəsi verilir və elə müqayisələr edilir ki, həmin müqayisə zamanı həm praqmatika, həm də insanın həyat təcrübəsi haqqında olan informasiyalar biri digərini kommunikasiyanın məntiqi və məzmunlu alınması üçün situasiyanın sistemliliyi ardıcıl düzülmüş cümlələr vasitəsilə ötürülə bilir. Həmçinin burada insanın vəziyyətinin və şəraitinin sistemli şəkildə necə dəyişməsi problemi qoyulur, sonra dəyişən şəraitin təbiətlə münasibəti də həmin informasiyada müəllif nitqində özünə yer alır.

H.Veynrix qeyd etdiyi kimi *"Mətn həmişə xətlidir, dinləyənin və yaxud oxuyanın diqqəti bir qayda olaraq əsasən iki istiqamətə, məhz geriyə əvvəl informasiyaya (anaforik) və yaxud irəli daha*

[11] Dreiser, Th. Sister Carrie / Th.Dreiser. – Moscow: – 1968. – p.100.

doğrusu sonra gələnə (kataforik) və bu nəyəsə münasibətdə informasiya öncəsi, informasiya sonrasına yönələ bilər"[12].

Bu paraqrafda mətnlərin formalaşmasında və informasiyanın sistemli olmasında əvəzliklərin, bağlayıcıların və təkrarların da böyük rolu olması barədə mətn parçalarının şərhi zamanı bəhs etmişik və onların hər birinin mətnin kommunikativ situasiyada sistemliliyi təmin edərkən dinamik bir mövqedə olması, mətn daxilində daim fəal iştirak etməsini vurğulamışıq. Yekun olaraq belə nəticə əldə etmişik ki, mətnlərin semantik bağlılıq əsasında formalaşmasında digər elementlər (cümlələrin komponentləri) ilə yanaşı əvəzliklərin (bizim bu mətn parçasında şəxs əvəzliklərin, yiyəlik əvəzliklərinin) çox böyük rolu vardır. Belə ki, mətn parçasının əvvəlində şəxsin adı verilməsinə baxmayaraq, sonrakı cümlələrdə şəxs və yiyəlik əvəzlikli cümlələr bir-biri ilə əlaqələnərək müvafiq şəkildə mətni formalaşdırır. Həmin cümlələr yanaşı işlənməklə bərabər, bir-birilə sintaktik-semantik cəhətdən bağlı olan kommunikativ situasiyada sistemlilik yaradır və ötürülən informasiyanı anlaşıqlı edir, köhnə verilən informasiya əsasında yeni informasiyanı formalaşdırır və dinləyiciyə-oxucuya ötürür.

Dissertasiyanın II fəsli "**Kommunikativ situasiya və biliyin təşkili"** adlanır. Bu fəslin birinci paraqrafı ***"Kommunikativ situasiyanın fərqləndirici xüsusiyyətləri"***ndən bəhs edir. Burada əsas fokus kommunikativ situasiyanın digər situasiyalardan fərqləndirici xüsusiyyətlərinin aşkarlanmasına yönəlmişdir.

Qeyd etmişik ki, mətnlər semantik bağlılıq nəticəsində elə düzülməlidir ki, mətn parçasında iştirak edən komponentlər (cümlələr) arasındakı zəncirvari əlaqələr qırılmasın, onları hissələrə ayırmaq mümkün olması və sonrakı gələn cümlə (komponent) məna cəhətdən həm özündən əvvəl gələn, həm də sonra gələnlə əlaqələnə bilsin və məzmun formalaşmaqla yanaşı kommunikasiya alınsın və kommunikasiyanın alınması isə son nəticədə kommunikativ situasiyanın fərqləndirici xüsusiyyətlərini şərtləndirən cəhətlərdən bəlkə də ən vacibidir.

---

[12] Вайнрайх, Х. Текстовая функция французского языка // Новое в зарубежной лингвистике. Выпуск VIII, – Москва: Прогресс, – 1978. – с.377.

Mətn və onun funksiyasından bəhs edərkən M.A.K.Həllidey yazır: *"Dilə yiyələnən güman edir ki, danışan mətn və mətn olmayan arasındakı fərqi bilir – yəni sözlərin siyahısını və yaxud cümlənin hər hansı bir yığımını. Bir qayda olaraq dildə danışan eşitdiyi və oxuduğunu mətn kimi qəbul edir; o heç cürə hər hansı bir fikir üstündə dayanmır ki, özünün nəyisə gümanını, ehtimalını və yaxud zəmanətini versin ki, kommunikasiya baş vermişdir. Bu ehtimal, güman məhz funksionaldır və o qədər sözlərin və strukturun bilinməsindən daha çox həmin situasiyada dilin hansı rol oynamasına söykənir, istinad edir. Belə halda dilin rolu o zaman etiraf olunur ki, həmin parça mətn kimi qəbul olunsun"*[13].

Mətnin daxili əlaqələri, mətndə kontinium, onun temporal və məkanı əlamətləri, faktlar, məlumatlar kimi vasitələrdə açılır və bu zaman kommunikasiya alınır və bu da son ucda kommunikativ situasiyanın səciyyəvi xüsusiyyətlərindən biridir. Başqa formada olsaydı, yəni bir qədər əvvəl M.A.K.Halideyin vurğuladığı kimi sözlərin yığını olardı və heç nə başa düşülməzdi və həmin söz, söz birləşmələri cümlələri formalaşdırır və həmin cümlələr arasındakı sintaktik və semantik əlaqənin yaranması və informasiya kimi ötürülməsi və kommunikasiyanın baş verməsi isə birbaşa koqnisiyanın hesabına yaranır. Koqnisiya olmasa nə sözlər və söz birləşmələri, nə də cümlələr arasındakı əlaqələri anlamaq, başa düşmək qeyri-mümkündür, ikinci cəhət ondan ibarətdir ki, bütün bunların hamısı kontekst daxilində mümkündür.

B.İsmayılov yazır ki, A.Vey eyni leksik tərkibə malik olan cümlənin hansı suala cavab verməsindən asılı olaraq müxtəlif məna verməsindən söz açaraq yazır ki, eyni bir cümləni müxtəlif situasiyada eyni sintaktik elementlərdən istifadə etməklə işlədib müxtəlif məna əldə etmək olar və beləliklə, A.Vey cümlənin təkcə formal-qrammatik quruluşu baxımından deyil, həm də onun kommunikativ cəhətdən öyrənilməsinə xüsusi fikir verməyin üzərində dayanır.[14]

---

[13] Хэллидей, А.К. Место "функциональной перспективы предложения" в системе лингвистического описание / А.К.Хэллидей. Перевод с англ.языка в новое в зарубежной лингвистике. – Москва: – 1978. – с.142.

[14] İsmayılov, B.B. Fransız dilinin aktual sintaksisi və onun tədrisi problemləri / B.B.İsmayılov. – Bakı: Nurlan, – 2008. – s.35.

Söhbət kommunikasiyadan gedən də biz həm A.Veyin, həm də B.İsmayılovun gəldiyi qənaətlərlə tam razılaşırıq və vurğulamaq istərdik ki, məhz kommunikativ situasiyanın səciyyəvi xüsusiyyəti kontekst daxilində daha bariz şəkildə özünü göstərir və ikinci bir cəhət ondan ibarətdir ki, obyektiv reallığa olan münasibətdə bir növ situasiyadan asılı olaraq verilən sualın məqsədindən də asılı olur.

Həmçinin mətnin kommunikativ funksiyalarının xüsusiyyətləri barədə Ə.Abdullayev, N.Novruzova da fikirlər bildirmişlər. Həmin fikirlərin hər birinə həm istinad etməklə, həm də nəzəri baza kimi qəbul etməklə dissertasiyanın bu paraqrafının məzmununa uyğun olaraq mətnlərin kommunikativ situasiyadakı əlamətlərini konkret mətn parçalarında araşdırmışıq.

Mətndəki cümlələr eyni tipli olmadığı kimi, mətnlərin özləri də fərqli xüsusiyyətə malik olur və həmçinin fərqli kommunikasiya yaradır və bu zaman semantika da fərqli olur? eləcə də situasiyadan asılı olaraq kommunikativ funksiyası da fərqli olur. Mətnə müraciət edək: *"When I was a young man, though his books sold but little and one or two were banned by the libraries, it was very much a sign of culture to admire them. He was thought frankly realistic. He was a very good stick to beat the Philistines with. Somebody's lucky inspiration discovered that his sailors and villagers were Shakespearean, and when the advanced got together they uttered shrill cries of ecstasy over the dry and spicy humour of his yokels. This was a comedity that Edward Driffield had no difficulty in supplying..."*[15]

Mətn parçasında cümlələrdə olan informasiyanın zaman və məkana uyğunluğu vardır və hadisələr (hərəkətlər) bir növ bir-birini əvəz etməklə eyni zamanda səbəb-nəticə əlaqələri özünü göstərir. İnformasiya ötürən/nəql edən *"when I was young" – "cavan olanda", "though his books sold" – "onun kitabları satılmağına baxmayaraq", "but little and one or two were banned by the libraries" – "kiçik bir və yaxud iki kitabına kitabxana tərəfindən yasaq qoyulmuşdu"* və s. bütövlükdə kontekst daxilində kommunikativ situasiyanın digərlərindən fərqləndirici əlamətlərini çox orijinal şəkildə göstərmişdir. Bütövlükdə mətn müəyyən dərəcədə istiqamət-

[15] Maugham, S.W. Cakes and Ale: or The Skeleton in the Cupboard / S.W.Maugham. – Moscow: Progress, – 1980. – p.102.

lənmiş informasiyanı və müəyyən tərzdə strukturlaşmış müxtəlif tipli, lakin məntiqi cəhətdən bir-birilə həm leksik, həm də qrammatik əlaqənin məcmusu olan cümlələr çoxluğundan ibarət olur. Mətnin semantikası isə kommunikativliyi və kommunikativ komponentləri özündə əks etdirir.

Mətn, onun kommunikativ xüsusiyyətləri, ümumiyyətlə, bütövlükdə linqvistik tədqiqat obyekti kimi mətn mürəkkəb tamdır. Struktur-semantik vahid kimi funksiyanı yerinə yetirir fikri dilçilikdə özünə yer tapmışdır. Mətn müəyyən dərəcədə istiqamətlənmiş informasiyanın və müəyyən tərzdə strukturlaşmış müxtəlif tipli, lakin məntiqi cəhətdən bir-birilə həm leksik, həm də qrammatik əlaqələrin məcmusu olan cümlələr çoxluğundan ibarət olur. Müəyyən dərəcədə nitq yaradıcılığı proses nəticəsi hesab olunmaqla bərabər yazılı sənəd, ədəbi işlənmə səviyyəsinə, kommunikativ funksiya yerinə yetirməsinə və tamlığına görə də fərqlənir. Yəni şifahi nitq hansı səviyyədə nitq ardıcıllığı ilə səciyyələndirilirsə, mətn də özünün çoxölçülüyü, çoxplanlılığı ilə səciyyələndirilir. Mətn ikili xüsusiyyətə malikdir: bir tərəfdən sabitlik (sükut), digər tərəfdən isə daimi hərəkət mətn üçün xarakterikdir.

Mətn gerçəkliyi inkişaf etdirməklə yanaşı, onun haqqında məlumat verir. Mətnin semantikası isə kommunikativliyi və kommunikativ komponentləri özündə əks etdirir. Mətndə kommunikativ, koqnitiv və emotiv funksiyalar kəsişir (qovuşur). Bir tərəfdən mətn kommunikativ tam kimi dəyərləndirilməklə bağlıdır, digər tərəfdən isə açıq sistemdir. Təbii olaraq bağlılıq onun mahiyyət əlamətində, məhdudluğunda və tamlığındadır. Belə ki, obyektiv reallıqla bərabər, mətn, onu yaradan və qavrayan subyektin şüurundan kənarda, müəyyən parametrlərlə (semantik komponent, səciyyəvi xüsusiyyətləri və s.) mövcuddur. Bu nöqteyi-nəzərdən mətnə yanaşdıqda onu qapalı sistem kimi təqdim etmək olur və sabit (sükut) səciyyə demək olur. Bununla belə, mətn ötürülərkən qavranılması vaxtı həcmi daim dəyişir və bu mənada mətn açıq sistem səciyyəsi daşıyır.

Başqa bir cəhət ondan ibarətdir ki, ingilis dili mətnlərinin strukturu barədə söhbət açarkən və onların formalaşmasını, situativ kommunikativ təhlil edərkən təkrarlardan yan keçmək olmaz, çünki bir çox hallarda verilən informasiyanı daha canlı və tez ötürüb anlat-

maq üçün (izafilik gözlənilməklə) situasiyadan asılı olaraq sözlərin, söz birləşmələrinin təkrar olunması kommunikativ situasiyanın fərqləndirici xüsusiyyətlərindən biri də mətn dilçiliyində bu parametrdir.

Təkrarlardan bəhs edərkən M.Adilov qeyd etmişdir ki, *"Təkrarlar: yarımçıq, morfem təkrarı, leksik təkrar, morfoloji təkrar, obrazlı təkrar, ritmik təkrar, sintaktik konstruktiv təkrar, sintaktik təkrar kimi ola bilər"*[16].

Bədii ədəbiyyatdan mətn parçasında istifadə edilmiş *"beauty"* sözünün təkrarlanmasına diqqət yetirək: *"But people add other quality to beauty – sublimity, human interest, tenderness, love - because beauty doesn't long content them"*[17]. – *"Lakin insanlar gözəlliyə başqa keyfiyyətlər əlavə etdilər – yüksəliş, bəşəri maraq, zəriflik, incəlik, şəfqət, məhəbbət. Çünki gözəllik uzun müddət bunlarla razılaşmırdı, kifayətlənmirdi"* deməsi gözəllik haqqında nəqledənin belə söyləməsi yeni olanın üzərinə daha da təzə naməlum olan barədə deyiləcəyi gözlənilir, çünki mətnin formalaşmasında nə qədər ki, mətn qapanmayıb hər bir cümlə özündən sonra gələcək (veriləcək) yeni informasiyanın olacağına bir növ zəmin yaradır və dinləyəni, oxucunu daha diqqətli olmağa vadar edir, bu isə artıq koqnisiyanın xidmətidir.

Mətndə təkrarlardan bəhs edərkən Ə.Abdullayev yazır ki, bu təkrarlar *təkrar-qapalılıq xüsusiyyətinə malikdirlər və mətnin daxili vahidi kimi fəaliyyət göstərirlər. Təkrarlar mətn daxilində dairəni cızmağa başlayırlar və bu zaman həmin elementlər özünəqayıdışı tələb edirlər. Belə ki, qapanma açıq olmaqla yanaşı, özünəməxsus intonasiya axını ilə də fərqlənir, bir sözlə, mətnin hər iki üç nöqtəsində yüksələn intonasiya axını müşayiətçi mövqedə durur… Belə şəraitdə qapanma olmaya da bilər, daha dəqiq izah etsək, onda qapanma açıq və ya gizli şəkildə olur. Qapanmanın gizli olması faktı mətndə üstünlük təşkil edir*[18].

---

[16] Adilov, M.İ. İzahlı dilçilik terminləri / M.İ.Adilov, Z.N.Verdiyeva, F.M.Ağayeva. – Bakı: Maarif, – 1989. – s.273.

[17] Maugham, S.W. Cakes and Ale: or The Skeleton in the Cupboard / S.W.Maugham. – Moscow: Progress, – 1980. – p.106

[18] Abdullayev, Ə.Ə. Aktual üzvlənmə, mətn və diskurs / Ə.Ə.Abdullayev. – Bakı: – 2011. – s.149.

Onu da vurğulamaq istərdik ki, təkrarlar sadəcə mətn yaratmır, həmçinin kommunikasiyaya xidmət edir, bizim mətn parçasında verilmiş *"beauty"* sözünün təkrarlanmasında olduğu kimi.

II fəslin ikinci paraqrafı ***"Biliyin təşkili prinsipi (freymlər)"*** adlandırmışıq. Biliyin təşkili prinsipi (freymi) haqqında bəhs edərkən, qeyd etməliyik ki, dilçilik ədəbiyyatlarında vurğulandığı kimi, freym mərkəzi konseptin ətrafında yaranmış strukturdur. Bunları adi bir nümunə əsasında anlatmaq olar ki, bunlar müəyyən dərəcədə həm danışana (təsvir edənə), həm də dinləyənə, informasiya qəbul edənə bəllidir, lakin həmin hadisə, hərəkət, obyekt haqqında elə informasiya vardır ki, informasiya qəbul edənə bəlli deyil və yaxud həmin semantik komponentlər və fərqləndirici əlamətlərin bir qismi informasiya qəbul edən üçün tamamilə yenidir və bu zaman informasiya qəbul edənin əvvəlki fon biliklərinə həmin səciyyəvi xüsusiyyətlər əlavə olunur.

Ə.Abdullayev T. van Deyk və V.Kinçin nəzəri fikirlərinə əsaslanaraq qeyd edir ki, *"bu zaman üç əsas xüsusiyyəti diqqət mərkəzində saxlamalıyıq: a) linqvistik təhlil; b) biliklərin təqdim edilməsi və istifadəsi; c) mətnin koqnitiv işlənməsi prosesində kontekstual informasiyanın sistematik təqdim edilməsi"*[19].

Linqvistikada mənanı öyrənən iki əsas sahə vardır ki, onlardan biri semantika, digəri isə praqmatikadır. Semantika sözlərin, ifadələrin, cümlələrin mətnlərin mənalarını, praqmatika isə dilin müəyyən situasiyada necə istifadə olunmasından bəhs edir. Dil vasitəsilə müəyyən mənanı ifadə edirik, lakin mənanı müəyyənləşdirmək üçün biliyin təşkili prinsipi (freymlər) bəzən heç də asan olmur. Ona görə də mənanı ölçmək (dəqiqləşdirmək) üçün bir neçə ölçü vardır ki, bunlar da mətnin formalaşmasında, cümlənin qurulmasında, habelə informasiyanın ötürülməsində və onun qəbul edilməsində müstəsna əhəmiyyətə malikdirlər.

Semantik mənanı tam anlamaq üçün üç əsas komponent mövcuddur: cümlənin işləndiyi kontekst, cümlədə olan sözlərin mənası, cümlənin morfoloji və sintaktik quruluşu. Bunları tam dərk

---

[19] Abdullayev, Ə.Ə. Mətni anlama modelləri / Ə.Ə.Abdullayev. – Bakı: – 1999. – s.113.

etmək üçün aşağıdakı bir cümləni üç (bir-birindən cüzi fərqlənən) variantda təqdim etməyimiz məntiqi-məzmun yaradardı.

1. A dog chased a cat under the house.

2. The dog chased a cat under the house.

3. My dog chased a cat under the house.

Bu cümlələrin hər üçündə bir pişiyin it tərəfindən evin altına qovulması informasiyası ötürülür, lakin cümlənin temaları fərqli olduğundan danışanın mənası – yəni niyyəti hər üç cümlədə fərqlidir. Görünən odur ki, hər üç halda pişiyin kimə məxsusluğu bəlli deyil, ancaq birinci halda itin kimə məxsusluğu aydın deyil, informasiya ötürənin niyyəti sadəcə faktı ötürmək olmuşdur, biliyin təşkili prinsipi (freym) yalnız faktı bildirir, semantik məna isə *"dog chased a cat"*dir, ikinci halda pişiyi evin altına qovan itin kimə məxsusluğunu informasiyanı ötürən adam bilir, semantik məna, danışanın niyyəti eynilə qalır, yalnız tema *"a dog" – "the dog"*-la əvəzlənir və bütün məsələlər birinci haldakı kimi təkrarlanır, üçüncü cümlədə isə işlənmiş *"my"* əvəzliyi danışanın ötürdüyü başqa bir informasiyanı özündə əks etdirir, yəni nə qədər ki, informasiyanı danışan ötürür və bununla ifadə edir ki, onun iti var, pişiyi evin altına qovan it heç də naməlum deyil, məlumdur və situasiyadan asılı olaraq koqnisiya vasitəsilə başqa mənalar da ortaya çıxa bilir. Qeyd etdiyimiz kimi mətnlərin mənalarının (bizim bu variantda cümlənin) öyrənilməsi eyni zamanda qrammatik proseslərin sadə mənalardan mürəkkəb mənaların yaradılması ilə izlənilir. *"My"* əvəzliyinin işlədilməsi danışanın itinin olması, pişiyi məhz onun itinin evin altına qovması informasiyasının ötürülməsi sadə fakt deyil, orada danışanın mənası niyyəti fərqlidir.

Burada biz biliyin təşkili prinsipi (freym) belə bir struktura ilə işarələyə bilərik: semantik-leksik-qrammatik. Onun ardınca birinci tərəfdə semantik məna, digər tərəfdə isə danışanın mənası-niyyəti və bunların ümumi məcmusu onların işlədildiyi kontekst-praqmatika. Yəni semantika leksikon, qrammatika və semantik mənanı bir yerə yığıb əlaqələndirir. Praqmatika isə kontekstdə işlədilmə və həmçinin semantika və danışanın mənası-niyyətini bir yerə yığır.

Mətnin formalaşmasından bəhs edərkən Q.Kazımov qeyd edir ki, s*intaktik bütövlərin tərkibi olan komponentlər bir-biri ilə həmişə*

eyni üsulla əlaqələnmir. Bu cəhəti mətn üzərində praktik şəkildə yoxlayan dilçilər bu komponentlər arasında məntiqi rabitəni müxtəlif şəkildə müşahidə etmişlər. İki əlaqə üsulu olan zəncirvari və paralel əlaqələr hamı tərəfindən qəbul olunmuşdur – "subyekt, obyekt və predikat ideyası cümlədən-cümləyə bu cür inkişaf edərək hadisələrin bağlanmasına və tematik proqressiyaya səbəb olur. Hər bir yeni cümlədə fikir nüvəsini təşkil edən bir söz olur və belə sözlər "yeni"ni ifadə edir [20].

Bütün bunların hamısı bütövlükdə biliyin təşkili prinsipini (freymi) şərtləndirir.

Mətn formalaşan zaman informasiyanın toplanması fikrin müxtəlif üsullarla inkişaf etdirilməsi ilə, daha doğrusu ya paralel və yaxud zəncirvari ardıcıllıqla baş verir. Təbii olaraq zəncirvari ardıcıllıqla düzülərkən hər bir cümlədə müəyyən əlamətlə, başqa sözlə semantik komponentlə predmet (obyekt), təzahür, hadisə verilir ki, bunlar əvvəlki cümlədə irəli sürülmüş olur.

Beləliklə, fikrin inkişaf etdirilməsi mətnin kommunikativ strukturunu dəyişmir. İki mətnin uyğunluğu, fərqlilikləri ilə yanaşı, daha çox prinsipial səciyyə daşıyır. Bu zaman tema-rema münasibətləri onların əlavə xüsusiyyətlərini təşkil etsə də əsas xarakteristikasını təmin etmir və eyni zamanda mətnin kommunikativ strukturu fikrin inkişaf etdirilməsini müəyyənləşdirir. Nəzərə alsaq ki, bütün bu proseslər kiçik zaman çərçivəsində baş verir və hisslərin təhlili gedir, deyə bilərik ki temanın irəliləməsində kontekstual vaxt kəsimi böyük rol oynayır.

V.Matezius temanın "açılması" və temanın "genişləndirilməsi"ndən bəhs edərkən göstərmişdir ki, *"bir qayda olaraq "temanın açılması" zaman hərəkəti ilə bağlıdır, temanın inkişaf etdirilməsi isə epik planda söhbət temanın təsviri və yaxud xarakteriskasından gedir və bütün hallarda biz eyni zaman müstəvisində qalırıq"*[21].

Dilçilik ədəbiyyatlarında qeyd olunduğu kimi, tema-rema münasibətləri mətndə, həmçinin biliyin təşkili prinsipində paralel təşkil olunur, bəzən hətta bir predmet bir neçə əlamətə görə bölünür

---

[20] Kazımov, Q.Ş. Müasir Azərbaycan dili / Q.Ş.Kazımov. – Bakı: – 2017. – s.895.

[21] Матезиус, В. О так называемом актуальном членении предложении / В.Матезиус. Пражской лингвистической кружок. – Москва: – 1967. – с.521.

və yaxud bir neçə predmet eyni vaxtda bənzər əlamətlərlə olur. Lakin bu heç də o demək deyildir ki, mətnin komponentləri (söyləmlər) arasında əlaqələr olmur. Əksinə bizim nümunə gətirdiyimiz hər iki abzasda ilk baxışdan elə görünə bilər ki, mətnin komponentləri olan ayrı-ayrı cümlələr arasında heç bir əlaqə yoxdur. Lakin diqqətlə onların kontekstual semantikasına nəzər yetirdikdə məzmun planını həmin semantik əlaqələrsiz düşünməmək çox lüzumsuz olar. Burada bir başqa məqamı qeyd etmək yerinə düşər. Hipertema və ya sintaktik bütöv və ayrı-ayrı söyləmlərin – cümlənin teması arasında olan semantik münasibətlər-əlaqələr ola bilsin implisit və yaxud eksplisit olsun.

Biz belə qənaətə gəlirik ki, çoxtərəfli, çoxfunksiyalı və mürəkkəb bir hadisə olan dil özünəməxsus qanunauyğunluqlarla idarə olunur və inkişaf edir.

Mətnləri təhlil edərkən biliyin təşkili prinsipi (freymi) situasiya və kontekstdən, digər tərəfdən isə informasiya ötürənin niyyət və məqsədindən bir çox hallarda asılı olur.

Dissertasiyanın III fəsli **“İngilis dili mətnlərinin linqvistik modelləri”** adlanır. Bu fəslin ***“Diskurs və referensiya”*** adlı birinci paraqrafında qeyd edilmişdir ki, nitq janrı özlüyündə mətn tipinin tematik və struktur tipini təqdim etməklə yanaşı, müəyyən kommunikativ situasiyada funksiya yerinə yetirir. Kommunikasiyanın geniş əhatə dairəsini nəzərə alsaq, hesab edirik ki, nitqin janrı sabit formalıdır (modellidir), çünki özündə sosial-kulturoloji mənəviyyat yaradıcılığını əks etdirir (buraya məişət situasiyasını, bədii, elmi, hüquqi və başqa sahələri aid etmək olar).

Bu paraqrafda həmçinin diskurs və referensiya məsələsinə aydınlıq gətirməyə çalışmışıq. Əvvəlki paraqrafda mətndən, onun situativ formalaşmasından, kommunikativ funksiya yerinə yetirməsindən bəhs etmişdik, lakin bu paraqrafda diskursdan bəhs edərkən diskursun mətnə nisbətən mürəkkəb olması, mətnin bilavasitə maddi varlıq olması, mətndə təsvir olunanın maddi varlıq prizmasından təhlil etməyin mümkün olmasını, diskursda isə həm də belə olmadığını aşkarlamışıq. Nümunə üçün “No hands” dil parçasının hansı məkanda asılmasının xeyli fərqli semantikası vardır. Ən azı divara toxunma “rənglənib”, orada elektrik var-qorxuludur, müəssisənin elanlar

şöbəsində – bizə işçi lazım deyil və s. Təbii olaraq bu paraqrafda də müxtəlif nəzəri fikirlərə istinad etmişik və mətn parçalarında diskurs və referensiya məsələsinin təhlilini göstərmişik.

Nitq fəaliyyətinin predmeti – fikir, məhsulu isə mətn hesab olunur. Mətndə (bir qədər öncə qeyd etdiyimiz kimi) danışanın və yaxud yazanın fikri reallaşır və ünsiyyətin (kommunikasiyanın) uğurlu alınması mətndən asılı olur. Psixoloji nöqteyi-nəzərdən mətnə yanaşmada onun mürəkkəb nitq deyimi olması, məntiqi kompozisiya və məntiqi-məna strukturuna, eləcə də predmet məzmununa görə, dil xarakteristikasına görə və özünün kommunikativ funksiyasına görə özünəməxsus fərqləndirici xüsusiyyətlərə malik olmasını müşahidə etmək olur. Sözün geniş mənasında isə mətnə informasiya məcmusu kimi baxmaq olar.

Diskursla bağlı L.V.Şerba demişdir: *"Verilmiş ictimai qrupun həyatının bu və ya digər dövründə müəyyən konkret şəraitdə danışılan və başa düşülənin məcmusudur"*[22].

A.Məmmədov bu barədə belə yazır ki, *bədii mətn tipləri və janrları həm praqmatik marağa, həm də koqnitiv effektə nail olmalıdır. Amma biz fərqli mətn tip və janrlarını nəzərdən keçirərkən müşahidə edirik ki, praqmatik maraq çox və ya az dərəcədə fərqli diskurs strategiyalarında özünü göstərir*[23].

Qeyd etmişik ki, zaman, məkan və şəxs kontiniumunun dinamizmi yenilik gətirməklə yanaşı referensiya da fərqli ola bilir, çünki bu zaman həmin diskursun baş verdiyi situasiya və kontekst də xüsusi rol oynayır və hər bir halda yeni zaman, yeni məkan və yeni şəxs (həmçinin yeni situasiya) adətən yeni meyarlarla müşayiət olunaraq, yeni mənaların yaranmasına səbəb olur.

Hər bir mətn parçasında (diskursda) referensiya baş verir və informasiya ötürən çalışır ki, informasiya qəbul dən onun ətrafında baş verən naməlumlardan məlumlara doğru anlaya bilsin, sadəcə nitq aktı zamanı faktlar deyil, həmçinin həmin faktlar arxasında dayanan naməlum informasiya haqqında da təsəvvürü olsun və hadisə və

---

[22] Щерба, Л.В. Языковая система и речевая деятельность / Л.В.Щерба. – Ленинград: Наука, – 1974. – с.31.

[23] Məmmədov, A.Y. Diskurs tədqiqi / A.Y.Məmmədov, M.Y.Məmmədov. – Bakı: – 2013. – s.44.

məlumatlar barədə bilikləri dolğun olsun və informasiya qəbul edən hər şeyi doğru-düzgün qavrasın və eyni zamanda informasiya ötürənin niyyəti də yerinə yetsin və referensiya bütöv bir tamlığı mətnlə birlikdə formalaşdırmış olsun və kommunikasiya baş tutmuş olsun.

"Müəllif şərhinin praqmatikası" adlı ikinci paraqrafda isə müəllif şərhinin praqmatikasından bəhs etmişik. İlk növbədə praqmatikanın nə olması barədə söhbət açmışıq, sonra isə müəllif şərhinin praqmatikasını mətn parçaları vasitəsilə şərh etməyə çalışmışıq. Təbii olaraq praqmatik məna müəyyən məkan və zaman daxilində müəyyən kontekstdə danışan və dinləyənin söhbətində təsvir edilən hadisə və predmetlərin mənasını bildirir. Dil məlumatın danışanın təfəkküründən dinləyənin təfəkkürünə ötürülməsini təmin edir və bu məlumatın hər biri mürəkkəb konfiqurasiyalar yaradan semantik vahidlərdən ibarət cümlələrdən təşkil olunan məna kimi qəbul edilə bilər.

Burada hər hansı kommunikativ vəziyyəti formalaşdıran dörd əsas parametr var: yer, vaxt, ünsiyyət tərəfdaşları, mövzu. Belə ki, kommunikativ situasiyanın strukturuna kommunikativ hadisənin tipoloji təbəqələşməsi, ünsiyyət metodu, ünsiyyətin təşkili, kommunikativ hadisənin topologiyası və xronologiyası, kommunikativ hadisənin iştirakçılarının sosial-situasiya xüsusiyyətləri, kommunikativ hadisə iştirakçılarının sosial status münasibətləri və ünsiyyətçilərin motivasiya-hədəf istiqaməti daxil edilməlidir. Biz də öz şərhimizdə məhz bu parametrləri göstərməyə çalışmışıq və elə də etmişik.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqat zamanı əldə edilmiş qənaətlər aşağıdakı kimi ümumiləşdirilmişdir:

1. Kommunikativ situasiya konkret mətnin formalaşmasına və onun genişlənməsinə təsir göstərir. Həmçinin həmin kommunikativ situasiya mətn daxili funksiya yerinə yetirərkən dəyişə bilər.

2. İngilis dilində, başqa dillərdə olduğu kimi, inversiya ayrılıqda götürüldükdə söz sırasının dəyişməsinin göstəricisidir. Belə olduğu halda mətn komponentlərinin ya yeri dəyişir və yaxud həmin komponentlər arasına başqa komponent əlavə olunur və belə halda situasiyadan asılı olaraq mətnin komponentləri olan cümlələr arasındakı əlaqə daha da möhkəmlənə bilir.

3. Mətn formalaşdıran sözlər onlar arasında əlaqə yaradan formal sözlərlə yanaşı situasiyadan asılı olaraq və həmçinin mətni yaradan insanın niyyəti, məqsədi həmişə əsas götürülür. Bu zaman bəzi fikirlər eksplisit, bəziləri isə implisit yolla mətndə verilir və kommunikasiya zamanı təbii olaraq informasiyanı ötürən və qəbul edənin fon bilikləri əhəmiyyət kəsb etmir.

4. Mətnin semantikası kommunikativliyi və kommunikativ komponentləri özündə əks etdirir. Mətndə həmçinin kommunikativ, koqnitiv və emotiv funksiyalar kəsişir (qovuşur). Bir tərəfdən mətn kommunikativ tam kimi dəyərləndirilməklə həm bağlı olur, digər tərəfdən isə açıq sistem təsiri bağışlayır. Bağlılıq onun mahiyyət əlamətində, məhdudiyyət və tamlığındadır, açıq sistem olması isə mətn ötürülərkən qavranılması vaxtı həcmi daim dəyişir.

5. Kommunikativ situasiyanın fərqləndirici xüsusiyyətlərindən biri də mətnin qapanmasına baxmayaraq sonda işlədilmiş cümlə və yaxud ifadənin yeni informasiyanın təməlinin qoyulması kimi qiymətləndirilməsidir.

6. İngilis dili mətnlərinin strukturu və formalaşması barədə bəhs edərkən, situativ kommunikativ təhlil edərkən təkrarlardan yan keçmək olmaz, çünki bir çox hallarda verilən informasiyanı daha canlı və tez ötürüb anlatmaq üçün (izafilik gözlənilməklə) situasiyadan asılı olaraq sözlərin, söz birləşmələrinin təkrar olunması, həmçinin prosodik vasitədən mətnin yararlanması vacib şərtlərdəndir. Gəldiyimiz nəticə etibarı ilə, kommunikativ situasiyanın fərqləndirici xüsusiyyətlərindən biri də mətn dilçiliyində bu parametr hesab oluna bilər.

7. Mətndə (ingilis dili mətnində) tema-rema münasibətləri, mətnin komponentləri – söyləmlər arasında əlaqələri nəzərə almaqla, biliyin təşkili prinsipində paralel təşkil olunur. Bəzən hətta bir predmet bir neçə əlamətə görə bölünür və yaxud bir neçə predmet eyni vaxtda bənzər əlamətlərlə olur. Mətn parçasında bəzən bir neçə freym biliyin təşkilində verilə bilər, ancaq onlar arasında semantik bağlılıq mütləq vacibdir, bu bağlılıq isə situasiyadan da asılı ola bilər. Belə ki, informasiyanı ötürən nəyisə təsvir etdiyi halda, orada olan komponentlərdən birini qabarıq şəkildə aydınlaşdırmaq üçün həmin komponent haqqında əlavə freym yaradır və eyni zamanda

əvvəlki informasiya ilə onu əlaqələndirir.

8. İngilis dili mətnlərinin, xüsusilə bədii mətnlərin situativ kommunikativ təhlili zamanı bədii dilin daşıyıcısı vəzifəsi referensiyanın konkretləşdirilməsində deyil, müəyyən dərəcədə onun axtarış imkanının lazımi tərzdə qeyd olunmuş sahəsində seçmək imkanının verilməsindədir. Bütövlükdə ingilis dili mətnlərində biliyin təşkili prinsipi (freymi) situasiya və kontekstdən, digər tərəfdən isə informasiya ötürənin niyyət və məqsədindən bir çox hallarda asılı olur.

Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı çap olunmuş əsərlərində əks olunmuşdur:

1. Bədii mətnin təhlilinin praqmatik aspektləri // Azərbaycan Dillər Universiteti, Tətbiqi dilçiliyin müasir problemləri. III Beynəlxalq elmi konfransın tezisləri. – Bakı: – 25-26 oktyabr, – 2018, – s.235.
2. Kontekst, mətn və diskursun qarşılıqlı əlaqələri haqqında // – Bakı: Bakı Dövlət Universiteti, Dil və Ədəbiyyat Beynəlxalq Elmi-Nəzəri Jurnal, – 2020. №2(114), – s.32-36.
3. Kommunikasiya zamanı sistemlilik // – Bakı: Bakı Slavyan Universiteti, Elmi əsərlər (Dil və ədəbiyyat seriyası), – 2020. №2, – s.176-183.
4. Mətnin formalaşması zamanı fon biliklərinə əlavələr // – Bakı: Azərbaycan Dillər Universiteti, Elmi Xəbərlər, – 2020. №2, – s.24-32.
5. Diskurs və müasir dilçilikdə mətn // Azərbaycan Universiteti, Gənc tədqiqatçıların III Respublika elmi-praktik konfransı. – Bakı: – 13 mart, – 2020. – s.250-252.
6. İngilis bədii mətni və yeni informasiya // – Bakı: Azərbaycan Dillər Universiteti, Elmi Xəbərlər, – 2021. №4, – s.28-33.
7. Различные особенности ситуации во время коммуникации // Инновационные подходы в современной науке. сб. ст. по материалам LXXXVIII международный научно-практический конференции. – Москва: “Интернаука”, – 2021, №4(88), – с.71-75.

8. Роль ситуации в коммуникации // Вчені Записки Таврійського Національного Університету імені В.І.Вернадського Серія: Філологія. Журналістика. – Том 32. Частина 1. – Киев: – 2021. №3(71), – с.115-120.

Dissertasiyanın müdafiəsi 04 aprel 2024-cü il tarixində saat 10.00 Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 27 fevral 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 27.02.2024

Kağızın formatı: 60x84 1/16

Həcm: 46 160 işarə

Tiraj: 100